**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**060201 Dilşünaslıq ixtisası üzrə İF-M 2783**

# “Azərbaycan dili tarixi (problemlər)”

**fənninin**
**magistratura səviyyəsi üçün**

**PROQRAMI**

**BAKI − 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**060201 Dilşünaslıq ixtisası üzrə İF-M 2783**

# "Azərbaycan dili tarixi (problemlər)"

**fənninin**
**magistratura səviyyəsi üçün**

## PROQRAMI

*Bakı Dövlət Universitetinin Rektorunun*
*15.03.2018-ci il tarixli R-27 saylı əmri*
*ilə nəşr hüququ verilmişdir.*

**BAKI − 2019**

**Tərtib edən:** **Qızılgül Ağəli qızı Abdullayeva**
***BDU-nun Türkologiya kafedrasının dosenti***
***filologiya üzrə fəlsəfə doktoru***

**Elmi redaktor:** **Tofiq İsmayıl oğlu Hacıyev**

***BDU-nun Türkologiya kafedrasının professoru***
***filologiya elmləri doktoru***

**Rəyçilər:** **Firəngiz Qabil qızı Kərimli**
***BDU-nun Türkologiya kafedrasının dosent***
***əvəzi, filologiya üzrə fəlsəfə doktoru***

**Qətibə Vaqif qızı Quliyeva**
***AMEA Nəsimi adına Dilçilik İnstitutu Təhsil***
***şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru***

# İF-M 2783 Azərbaycan dili tarixi (problemlər)
## İzahat vərəqi

**Fənnin məqsəd və vəzifələri.** «Azərbaycan dili tarixi» fənninin tədrisində əsas məqsəd magistrantların təhsilin bakalavr pilləsində Azərbaycan dilinin tarixi qrammatikası və Azərbaycan ədəbi dili tarixinə dair aldıqları bilikləri daha da zənginləşdirmək, onları dilimizin etnik mənşəyi, Azərbaycan ədəbi dilinin yazıyaqədərki və yazılı dövrləri, bu dövrlərin inteqral və diferensial xüsusiyyətləri, milli dilin yaranması, eləcə də ortaq türk dili məsələsinin tarixi və müasir dövrdə bu ideyanın aparıcılığı ilə tanış etməkdir.

Fənnin tədrisi prosesində magistrantlar **bilməlidir:**

- Dilimizin dünya dilləri içərisində yerini
- Dilimizin qrammatik quruluşunun və əsas lüğət fondunun müəyyənləşməsini.
- Dilimizin tarixi keçmişini
- Azərbaycan ədəbi dilinin dövr və mərhələlərini
- Milli ədəbi dilin yaranması, inkişafı, formalaşması və müəyyənləşməsini
- Milli ədəbi dilin yeni mərhələsini
- Dildaxili gedən yeni prosesləri
- Dilimizin tarixi adlarını
- «Azərbaycan» termininin etimologiyasını
- Ümumi türk ədəbi dili məsələsini
- Ortaq türkcədə dil örnəklərini
- Müasir dövrdə ortaq türkcə məsələsinin gündəmdə olması və aparıcılığını

**Bacarmalıdır:**

- Azərbaycan dilinin etnik mənşəyini elmi dəlillərlə araşdırmağı

- Azərbaycan ədəbi dilinin əsas dövr və mərhələlərini müəyyənləşdirməyi
- Azərbaycan ədəbi dilinin dövrləri və mərhələləri arasındakı inteqral və diferensial xüsusiyyətləri aşkarlayıb üzə çıxarmağı
- Aparıcı dil və üslub anlayışlarını izah etməyi

**Yiyələnməlidir:**

- Dilimizin tarixi keçmişini, yazıyaqədərki və yazılı dövr mərhələlərini müxtəlif dilçilik metodlları ilə araşdırmağa

**Fənnin tədrisi üsulları:**

«Azərbaycan dili tarixi» fənni mühazirə və məşğələ şəklində təris olunur.

**Fənnin tədris planında yeri:**

«Azərbaycan dili tarixi» fənni Filologiya fakültəsində magistratura səviyyəsində Dilşünaslıq ixtisası üzrə mühazirə 15 saat, məşğələ 15 saat olmaqla cəmi 30 saat tədris olunur.

«Azərbaycan dili tarixi» fənni Azərbaycan dilinin tarixi qrammatikası, Azərbaycan ədəbi dili tarixi, Müasir Azərbaycan dili fənləri ilə əlaqəli şəkildə tədris olunur.

## Saatların mövzular üzrə bölgüsü

| № | Mövzuların adı | Mühazirə | Məşğələ |
|---|---|---|---|
| 1. | Azərbaycan dilinin etnik mənşəyi və təşəkkülü haqqında | 2 | |
| 2. | Azərbaycan dilinin etnik mənşəyi və təşəkkülü haqqında | | 2 |
| 3. | Azərbaycan ədəbi dilinin dövrləri | 2 | |
| 4. | Azərbaycan ədəbi dilinin dövrləri | | 2 |
| 5. | Yazıyaqədərki dövr | 2 | |
| 6. | Yazıyaqədərki dövr | | 2 |
| 7. | Yazı dövrü | 2 | |
| 8. | Yazı dövrü | | 2 |
| 9. | Azərbaycan dilinin qrammatik quruluşunun sabitləşməsi | 2 | |
| 10. | Azərbaycan dilinin qrammatik quruluşunun sabitləşməsi | | 2 |
| 11. | Milli dil məsələsi | 2 | |
| 12. | Milli dil məsələsi | | 2 |
| 13. | Koyne məsələsi | 2 | |
| 14. | Koyne məsələsi | | 2 |
| 15. | Ümumi türk ədəbi dili məsələsi | 1 | |
| 16. | Ümumi türk ədəbi dili məsələsi | | 1 |
| Cəmi: 30 | | 15 | 15 |

## Mövzular və onların məzmunu

### 1. Azərbaycan dilinin etnik mənşəyi və təşəkkülü haqqında

«Azərbaycan dili» və «Azərbaycan xalqı» paralelliyi. Azərbaycan dilinin türk mənşəliliyinin Azərbaycan xalqının etnogenezisi ilə bağlılığı.Türkoloji aləmdə hər ikisi haqqında fikirlərin üst-üstə düşməsi. Azərbaycan xalqının etnik kökü ilə bağlı fikir müxtəlifliyi. Tarixçilərin mövqeyi. Azərbaycan xalqının etnik kökü, etnogenezisi haqqında türkoloji aləmdə iki baxışın mövcudluğu. Azərbaycan xalqının və eləcə də Azərbaycan dilinin müəyyənləşmə tarixini müasirləşdirməyə cəhd meylləri (İ.Dyakonov, Qrantovski, İ.Əliyev...) və əks mövqe (Z.İ.Yampolski, L.Qumilyov, Y.Yusifov, M.Seyidov, Q.Qeybullayev, T.Hacıyev...). «Azərbaycan dili» anlayışı və onun tarixən müxtəlif adlarla işlənməsi. Tarixən «türkcə // türk dili» termininin aparıcılığı. Dilin sonrakı tarixi inkişaf mərhələlərində «Azərbaycan dili» termininin sabitləşməsi. «Azərbaycan» lüğəvi dil nümunəsi və onun tarixi izi. «Azərbaycan» termini və onun etimologiyası. Fikir və mülahizələr. Azərbaycan ərazisində türk etnoslarının qədimliyi və oturaqlığı Yerli və gəlmə türklər. (V.Bartold, L.Qumilyov, Z.İ.Yampolski, Y.Yusifov, T.Hacıyev). Midiya və Midiya türkləri haqqında (R.Nur, B.Çobanzadə). Azərbaycan ərazisində türklər, türk mənşəli dil faktları, həmçinin titullar haqqında qeyri-türk mənbələrin (qədim yunan, ərəb, fars, erməni, gürcü mənbələrin) elm aləminə təqdim etdiyi faktlar. Azərbaycan dilinin müəyyənləşməsi və təşəkkülündə oğuz və qıpçaq tayfalarının iştirakı məsələsi. Qeyri-oğuz dil faklarının ilkinliyi (M.Kaşğarinin təqdim etdiyi dil faktları üzrə mülahizələr). «Türk» dili və «türki» dili. İnteqral və diferensial xüsusiyyətlər.

Türk-şumer paralelliyi (Osman Nedim Tuna). Tayfa konsolidasiyası məsələsi. İran dilli və türk dilli tayfaların konsolidasiya tarixi haqqında. Azərbaycanda başlamış xalq təşəkkülülünün başa çatması və formalaşması. Azərbaycanlıların etnik və dil kökünə görə türk mənşəliliyi.
(1, 3, 7, 21, 23)

## 2. Azərbaycan ədəbi dilinin dövrləri

Azərbaycan ədəbi dilinin inkişafında didaxili və dilxarici faktorların qarşılıqlı əlaqəsi. Müxtəlif prinsiplər üzrə dövrləşdirmə təcrübələri. Əsas şərt olaraq dilin daxili inkişaf qanunauyğunluqlarının nəzərə alınması, normada dəyişkənlik. Normalılıq ədəbi dilin əsas atributu kimi. Ədəbi dilin inkişafının normanın təkamülü kimi qəbul edilməsi. Bu təkamüldə kəmiyyət hədlərinin dövr, mərhələ və yarımmərhələlərin müəyyənləşməsinə təsiri. Bu fonda dilin struktur-forma və funksional məzmun əlamətlərinin səciyyəsi. Ədəbi dilin dövrləşdirilməsi tarixi və onun müxtəlif şəxslər tərəfindən təqdimi. Ə.Dəmirçizadə, B.Çobanzadənin təsnifində əsas aparıcı meyl. Ədəbi dilin dövrləşdirilməsində T.Hacıyev mövqeyi. Ədəbi dilin inkişafında yazıyaqədərki dövr və yazı dövrü. Yazı dövrünün mərhələləri. İnteqral və diferensial xüsusiyyətlər. Dövrlər arasında əlaqə. Bu əlaqədə ənənə və novatorluğun paralelliyi. Milli dilin yaranması, inkişafı, müəyyənləşmə və formalaşmasını əks etdirən mərhələlər. Milli dilin yeni mərhələsi. Dövrlərin formalaşmasında bədii dilin, bədii nitqin rolu.
(1, 3, 6, 19)

## 3. Yazıyaqədərki dövr

E.ə. II əsrdən VI əsrəqədərki tarixi dövr. Yazıyaqədərki dövrdə tayfa konsolidasiyası. Azərbaycan xalqının təşəkkülü. Azərbaycan xalq türkcəsinin formalaşması və fəaliyyəti dövrü. Azərbaycan türkcəsində oğuzcanın iki qat təşkil etməsi. I oğuz qatına məxsus dil xüsusiyyətləri və bunun əsasən fonetik səviyyədə qalığı. Qədim oğuz qatına aid fonetik dəyişmələr. Səs keçidləri və səs müvaziliyi. Fonetik təkamülün bəzən leksik-semantik qavrayışla nəticələnməsi. II oğuz qatı və onun mərhələləri.

(1, 3, 7, 21, 23)

## 4. Yazı dövrü

Yazılı dövr və onun tarixi mərhələləri. Yazılı dövrün I mərhələsi. VII-XII əsrlər mərhələsi. Ədəbi dilin şifahi qolunun aparıcılığı. «Dədə Qorqud kitabı»nın varlığı. Bu mərhələnin öyrənilməsində əsas mənbə olaraq «Dədə Qorqud kitabı»nın və əcnəbi dillərdə yazılmış mətnlərdə daşlaşmış türk mənşəli lüğəvi vahidlərin məxsusi rolu. Şifahi ədəbi dil nümunələrinin yazıya köçürülməsi. Milli dilin yaranması və inkişafı. Bu tarixi mərhələdə Azərbaycan yazılı ədəbi dilinin mövcudluğu ilə bağlı fikirlər, mülahizələr və gümanlar. Yazılı dövrün II mərhələsi. XIII-XVI əsrlər mərhələsi və onun yarımmərhələləri. Bu yarımmərhələləri yekunlaşdıran söz ustadları. Milli dilin formalaşması və müəyyənləşməsi. Aparıcı dil və aparıcı üslub anlayışı. Ədəbi dilin koynesi. Yazılı dövrün III mərhələsi və onun yarımmərhələləri. XVII-XVIII əsrlər yarımmərhələsi və normada xəlqiləşmə. Milli dilin yeni mərhələsi. Dildaxili yeni proseslər. Diferensasiya, sabitləşmə, demokratikləşmə prosesləri. Canlı danışıq dilinin əruza nüfuzu və fəallıqla müşayəti. Bu tarixi

yarımmərhələdə aparıcı dil və aparıcı üslub anlayışı. Əcnəbi dillərin tədriciliklə tənəzzülə uğraması və Azərbaycan dilinin kultu. XIX-XX əsrin 30-cu illərinəqədərki yarımmərhələ. Üslubların yenidən təşkili. Ədəbi dildə çoxvalentlilik. Satira, mənzum hekayə, dram və realist nəsrin reallıq qazanması. Publisist üslubun yaranması. Ədəbi dil normasının funksional-məzmun tərəfindəki kəsirin ödənməsi. Fonetik-orfoqrafik-morfoloji norma və variantlılıq. Leksik terminoloji və sintaktik normada yeniləşmə. Ədəbi dilin koynesi. XX əsrin 30-cü illərindən XXI əsrəqədərki yarımmərhələ. Məktəblərdə ədəbi dilin sistemli və əhatəli şəkildə təbliği. Müxtəlif növ lüğətlərin hazırlanması və nəşri. Normada sabitləşmə. Azərbaycan ədəbi dilinin bütün dövr və mərhələləri arasında qırılmaz əlaqə. Ənənə ilə novatorluğun vəhdəti. Ədəbi dilin əsasında ümumxalq dilinin aparıcılığı.

(3, 4, 5,10, 22)

## 5. Azərbaycan dilinin qrammatik quruluşunun sabitləşməsi

Dünya dillərinin tipoloji təsnifi. Türk dillərindən biri olmaq etibarı ilə Azərbaycan dilininn aqlitinativ dillər qrupuna daxil olması. Qrammatik quruluşun və əsas lüğət fondunun müəyyənləşməsi. Qrammatik quruluşun sabitliyi. Türk aqlütinasiyası. Aqlütinasiya və analitizm. Azərbaycan ədəbi dili tarixində aqlütinasiya və analitizmin növbələşməsi. Dil faktları ilə onun təsdiqi. Müasir Azərbaycan ədəbi dili ilə ekvivalentlik üzərində qurulan müqayisə. Azərbaycan türkcəsində oğuz və cağatay dillərinin paralelliyi və intensivlik nisbəti. Oğuz

elementlərinin üstünlüyü. Cağataycanın ədəbi normaya müdaxiləsi və onun əsas səbəbləri.

(1, 2, 3, 4, 11, 14, 15, 16, 17, 18, 20)

## 6. Milli dil məsələsi

Milli dil məsələsi. Məsələnin qoyuluşu. Milli dilin yaranması. Bu məsələ ətrafında fikir və mülahizələr. Türkoloji aləmdə milli dilin yaranması ilə bağlı tədqiqatçıların mövqeyi. T.Hacıyevin milli məsələnin yaranması ilə bağlı fikirləri. «Dədə Qorqud kitabı»nın yaranması ilə milli dilin yaranmasının eyni tarixi zamana düşməsi. Milli dilin yaranmasında «Dədə Qorqud kitabı»nın lüğət fondunun mühüm rol oynaması. Azərbaycan ədəbi dili tarixinə VII-XII əsrlərin milli dilin yaranma və inkişaf mərhələsi kimi daxil olması. Milli dilin formalaşması və müəyyənləşməsi. Ə.Nəvainin timsalında yetkin Şərq türkcəsi. Üç dilin zənginliklərindən istifadə edərək əvəzsiz ədəbi-bədii dil nümunələri yaradan Füzulinin onun müqabili olaraq oğuzcanı mükəmməl Qərb türkcəsi olaraq formalaşdırması. -durur, -isər... kimi cağataycaya məxsus elementlərdən Füzuli dilinin təcridliyi. Azərbaycan ədəbi dilinin Füzuli mərhələsində milli dilin tam mənası ilə müəyyənləşməsi. Milli ədəbi dilin müəyyənləşməsində mərkəzləşmiş dövlətin rolu. Milli dilin yeni mərhələsi.

(1, 2, 3, 4, 8, 9,12)

## 7. Koyne məsələsi

Klassik-kitab dili və folklor-danışıq dili. Əcnəbi dil faktlarına görə müqayisəli araşdırma. Azərbaycanda dövlət dili məsələsi. Fars dilinin dövlət dili səviyyəsində fəaliyyəti və fars-ərəb qoşalığının aparıcılığı. Klassik kitab dilinin aparıcı mövqe

qazanması. Ədəbi dilin norması. Normanın tərəfləri. Ədəbi dilin koynesi. XVII əsrəqədərki tarixi mərhələdə ədəbi dilin koynesi. Koyne rolunda dialekt ikiləşməsi. Təbriz-Şirvan dialektlərinin ədəbi diluin koynesi rolunda iştirakı və bunu faktlaşdıran dil elementləri. XVII-XVIII əsrlərdə vahid dialekt koynesinin yoxluğu. Ədəbi dilin əsasında Qarabağ şivə xüsusiyyətlərinin dialektfövqü kimi iştirakı. Dilin sonrakı tarixi inkişaf mərhələlərində ədəbi dilin koynesi. Fikirlər və mübahisələr.

(1, 2, 3, 4)

## 8. Ümumtürk ədəbi dili məsələsi

Ortaq türk dili məsələsi. Ümumi türk dili ideyası. İdeyanın tarixcəsi. Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri. Mirzə Kazımbəy və onun peqoqoji fəaliyyətində türk dilinin yeri. Ortaq türk dili ideyasının müəllifləri və mücahidləri (İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp...). İsmayıl bəy Qaspıralı və «Tərcüman» mətbu orqanı. Əli bəy Hüseynzadə və «Füyuzat» jurnalı. H.Zərdabi və onun ümumi türk dili məsələsinə münasibəti. I Ümumittifaq Türkoloji qurultayı. Qurultayda ortaq türk dili məsələsi. Ümumi türk dili məsələsi ilə bağlı məruzələr (F. Köprülü) və bu məruzələrdə ortaq türk dili məsələsi. Qurultayda müzakirə obyekti olaraq türkcələrin yaxınlığı məsələsi ilə bağlı fikir və mülahizələr (B.Çobanzadə, A.N.Samoyloviç, Beki Berdiyev...). Müasir dövrdə ümumi türk dili məsələsinə münasibət. Ortaq türkcədə örnək dil məsələsi. T.Hacıyevin bu məsələyə münasibəti.

(1,2,3,4,13)

## Sərbəst işlərin mövzulari

1. Azərbaycan dilinin etnik mənşəyi.
2. Ədəbi dilin dövrləşdirilməsi prinsipləri.
3. Yazıyaqədərki dövrdə ən qədim oğuz qatı
4. Milli dilin yaranması məsələsi
5. Milli dilin yeni mərhələsi
6. Azərbaycan dilinin qrammatik quruluşunun sabitləşməsi
7. Azərbaycan türkcəsinə cağataycanın müdaxiləsi
8. Normada milliləşmə
9. Ortaq türk dili məsələsi
10. Ədəbi dilin koynesi

## Ədəbiyyat

### Əsas


1. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. Bakı: ADU nəşri, 1976, 153 s.
2. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. 2 h. Bakı: Maarif, 1987,292 s.
3. Hacıyev T.İ. Azərbaycan ədəbi dilinin tarixi. I h. Bakı: Elm, 2012, 476 s.
4. Hacıyev T.İ. Azərbaycan ədəbi dilinin tarixi. II h. Bakı: Elm, 2012, 392 s.
5. Виноградов В.В. Проблемы литературных языков и закономерностей их образования и развития. Москва: Наука, 1967,136 с.


### Əlavə


6. Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm, 1991, 284 s.
7. Budaqova Z., Hacıyev T.İ. Azərbaycan dili. Bakı: Elm, 1992, 200 s.
8. Cahagirov M. Azərbaycan milli ədəbi dilinin təşəkkülü. I h. Bakı: Elm, 1978, 234 s.
9. Cahagirov M. Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin aparıcı üslubları. II h. Bakı: Elm,1989, 280 s.
10. Cəfərov N.Q. Azərbaycan türkcəsinin mililəşməsi tarixi. Bakı: Azərb. Dövlət Kitab Palatası, 1995, 208 s.
11. Cəfərov N.Q. Türkologiyaya giriş. Bakı: Elm və təhsil, 2016, 248 s.
12. Əlizadə S. Orta əsrlərdə Azərbaycan yazı dili. Bakı: ADU nəşri, 1985,85 s.

13. Hacıyev T. İ. Türklər üçün ortaq ünsiyyət dili. Bakı: Təhsil, 2013, 248 s.
14. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərb. Universiteti nəşriyyatı, 1990, 374 s.
15. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı: Azərtədrisnəşr, 1962, 372 s.
16. Mirzəzadə H. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı: Maarif, 1968, 161 s.
17. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2010, 458 s.
18. Zeynalov F. R. Türkologiyaya giriş. Bakı: Maarif, 1981, 345 s.
19. Будагов Р.А. Литературные языки и языковые стили. Москва: Изд-во «Высшая школа», 1967, 375 с
20. Виноградов В.В.История русского литературного языка (избранные труды). Москва: Наука, 1978, 320 с.
21. Гейбуллаев Г.А. К етногенезу азербайджанцев (историко-этнографическое исследовние). Т.I . Баку: Элм, 1991, 552 с.
22. Десницкая А.В. Наддиалектные формы устной речи и их роль в истории языка. Ленинград: Наука, 1970, 98 с.
23. Ямпольский З. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Ученые записки (серия языка и литературы) АГУ им. С.М.Кирова, 1966, № 2, с. 62-64